PEACE CORPS

Agreement between the
UNITED STATES OF AMERICA
and AZERBAIJAN

Signed at Baku October 8, 2003

NOTE BY THE DEPARTMENT OF STATE

Pursuant to Public Law 89—497, approved July 8, 1966 (80 Stat. 271; 1 U.S.C. 113)—

". . .the Treaties and Other International Acts Series issued under the authority of the Secretary of State shall be competent evidence . . . of the treaties, international agreements other than treaties, and proclamations by the President of such treaties and international agreements other than treaties, as the case may be, therein contained, in all the courts of law and equity and of maritime jurisdiction, and in all the tribunals and public offices of the United States, and of the several States, without any further proof or authentication thereof."

AZERBAIJAN

Peace Corps

Agreement signed at Baku October 8, 2003;
Entered into force February 3, 2004.

AGREEMENT BETWEEN THE GOVERNMENT OF THE UNITED STATES OF AMERICA AND THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN CONCERNING THE PROGRAM OF THE PEACE CORPS IN THE REPUBLIC OF AZERBAIJAN

The Government of the United States of America (hereinafter "the United States") and the Government of the Republic of Azerbaijan (hereinafter "Azerbaijan"), recognizing the importance of developing mutually advantageous relationships and cooperation between their countries, and further recognizing that the purpose of the Peace Corps is to promote world peace and friendship by making available to interested countries qualified men and women to help the people of such countries meet their needs for trained manpower, have agreed as follows:

ARTICLE I

1. The Government of the United States shall furnish such Peace Corps Volunteers as may be requested by the Government of Azerbaijan and approved by the Government of the United States to perform mutually agreed tasks in Azerbaijan.

2. The Volunteers shall work under the immediate supervision of governmental and private organizations in Azerbaijan designated by the two governments.

3. The Government of the United States shall provide training to enable the Volunteers to perform their tasks in the most effective manner.

4. The Government of Azerbaijan shall bear such share of the costs of the Peace Corps program incurred in Azerbaijan as the two governments may agree.

ARTICLE II

1. The Government of Azerbaijan shall accord equitable treatment to the Volunteers and personnel performing functions under contract with the Peace Corps and their dependents and property; accord them and their

property full aid and protection, including treatment no less favorable than that accorded generally to nationals of the United States residing in Azerbaijan; and fully inform, consult, and cooperate with representatives of the United States with respect to all matters concerning them.

2. The Government of Azerbaijan shall exempt the Volunteers and persons performing functions under contract with the Peace Corps who are not citizens or permanent residents of Azerbaijan from all taxes on payments that they receive to defray their living costs, on income derived from their Peace Corps work, and on income from other sources outside Azerbaijan; from all customs duties or other charges on their personal property introduced into Azerbaijan for their own use; and from all other taxes or other charges (including immigration/visa fees), except license fees. The Government of Azerbaijan shall issue residence permits and visas (including multiple-entry visas), without fee or other charge, to Volunteers and persons performing functions under contract with the Peace Corps.

ARTICLE III

1. The Government of the United States shall provide the Volunteers, the Peace Corps Representative, and staff of the Representative with such limited quantities of equipment and supplies as the two governments may consider necessary to enable the Volunteers to perform their tasks effectively.

2. The Government of Azerbaijan shall exempt from all taxes (including value-added taxes), customs duties, and other charges all equipment, supplies, and other goods and services introduced into or acquired in Azerbaijan by the Government of the United States, or any contractor financed by it, for use hereunder.

ARTICLE IV

1. To enable the Government of the United States to discharge its responsibilities under this agreement, the Government of Azerbaijan shall receive a Peace Corps Representative and such staff of the Representative (including employees and contractor personnel as designated by the Peace Corps Representative), and members of their families forming part of their households, as are acceptable to the Government of Azerbaijan.

Notwithstanding the provisions of any other agreement, the Government of Azerbaijan shall exempt such persons, and members of their families forming part of their households, who are not citizens or permanent residents of Azerbaijan from all taxes on income derived from their Peace Corps work or other sources outside Azerbaijan, from all customs duties and other charges on their personal property introduced into Azerbaijan for their own use, and from all other taxes or other charges (including immigration/visa fees), except license fees. In addition, such persons, and members of their families forming part of their households, shall be accorded status equivalent to that accorded administrative and technical staff personnel of the diplomatic mission of the United States, except they shall not be accorded immunities.

2. The Government of Azerbaijan shall issue residence permits and visas (including multiple-entry visas), without fee or other charge, to the Peace Corps Representative, staff, and individuals performing functions under this agreement, and members of their families forming part of their households.

ARTICLE V

The Government of Azerbaijan shall exempt from investment and deposit requirements and currency controls all funds introduced into Azerbaijan for use in accordance with this agreement by the Government of the United States or contractors financed by it. Such funds shall be convertible into the currency of Azerbaijan at the highest rate that is not unlawful in Azerbaijan.

ARTICLE VI

1. Appropriate representatives of the two governments may from time to time make such arrangements with respect to Peace Corps Volunteers and Peace Corps programs in Azerbaijan as appear necessary or desirable for the purpose of implementing this agreement.

2. Any disputes arising under this agreement shall be resolved amicably by the two governments.

ARTICLE VII

The undertakings of each government herein are subject to the availability of funds.

ARTICLE VIII

This agreement may be amended from time to time by mutual consent of the two governments. [Any such amendment shall be in writing.] In the event of a conflict between this agreement and a future agreement regarding cooperation to facilitate assistance, this agreement shall prevail concerning the Peace Corps program.

ARTICLE IX

This agreement shall enter into force upon an exchange of notes confirming that each Government has completed the necessary domestic legal requirements to bring the Agreement into force. The Agreement shall remain in force until one year after the date of the written notification from either government to the other of its intention to terminate the agreement. Termination of this Agreement shall not affect any right, obligation or legal situation of either Government created through the execution of the Agreement before the effective date of termination.

This Agreement is done at Baky, Azerbaijan on October 8, 2003, in duplicate in the English and Azerbaijani languages, each text being equally authentic.

FOR THE GOVERNMENT OF
THE UNITED STATES OF AMERICA:

H.E. Reno L. Harnish III
Ambassador

FOR THE GOVERNMENT OF
THE REPUBLIC OF AZERBAIJAN:

H.E. Viliyat Guliyev
Minister of Foreign Affairs

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AZƏRBAYCAN RESPUBLİKASINDA SÜLH KORPUSUNUN PROQRAMI HAQQINDA

S A Z İ Ş

Amerika Birləşmiş Ştatları Hökuməti (bundan sonra «Birləşmiş Ştatları») və Azərbaycan Respublikası Hökuməti (bundan sonra «Azərbaycan») ölkələri arasında qarşılıqlı faydalı əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsi əhəmiyyətini qəbul edərək,

Sülh Korpusunun məqsədinin müraciət edən ölkələrin xalqlarının təlim keçmiş işçi qüvvəsinə olan tələbatının ödənilməsinə ixtisaslı kişi və qadınların kömək etməsilə imkan yaradaraq dünyada sülhün və dostluğun təşviqi olduğunu qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

I MADDƏ

1. Birləşmiş Ştatları Hökuməti Könüllü Sülh Korpusunu Azərbaycan Hökumətinin xahişi və Birləşmiş Ştatları Hökumətinin təsdiqi ilə Azərbaycanda qarşılıqlı şəkildə razılaşdırılmış vəzifələri yerinə yetirmək üçün təşkil edəcəkdir.

2. Könüllülər Azərbaycanda hər iki Hökumət tərəfindən təyin olunmuş Hökumət və özəl təşkilatların bilavasitə nəzarəti altında işləyəcəklər.

3. Birləşmiş Ştatları Hökuməti Könüllülərin öz tapşırıqlarını ən səmərəli şəkildə yerinə yetirmələrini təmin etmək üçün onlara təlim keçəcəkdir.

4. Hər iki Hökumət razılaşarsa, Azərbaycan Hökuməti Sülh Korpusu proqramının Azərbaycanda meydana çıxmış xərclərinin müştərək ödənilməsini öhdəsinə götürəcəkdir.

II MADDƏ

1. Azərbaycan Hökuməti Sülh Korpusu kontraktı əsasında öz funksiyalarını yerinə yetirən Könüllülərə və əməkdaşlara, həmçinin onların öhdəsində olanlara və onların mülkiyyətinə ədalətli münasibət göstərməlidir; onlara və onların mülkiyətinə ümumilikdə Azərbaycanda yaşayan digər Birləşmiş Ştatları vətəndaşlarına göstərilməndən daha əlverişsiz olmayan tam yardım və mühafizə təmin etməlidir; və

onlara dair bütün məsələlərdə Birləşmiş Ştatları nümayəndələrinə tam məlumat verməli, məsləhətləşməli və əməkdaşlıq etməlidir.

2. Azərbaycan Hökuməti Azərbaycanın vətəndaşı və ya daimi sakini olmayan, Sülh Korpusu müqaviləsi əsasında öz funksiyalarını yerinə yetirən Könüllülərin və əməkdaşların yaşayış xərclərini ödəmək üçün aldıqları müavinətləri, Sülh Korpusu üçün gördükləri işdən əldə etdikləri qazancı və Azərbaycandan xaricdəki mənbələrdən əldə etdikləri gəlirləri bütün vergilərdən, öz istifadəsi üçün Azərbaycana gətirdiyi şəxsi əmlakının bütün gömrük rüsumlarından və digər xərclərdən, və lisenziya xərcləri xaric, bütün digər vergi və xərclərdən (immiqrasiya və viza xərcləri də daxil olmaqla) azad etməlidir. Azərbaycan Hökuməti Sülh Korpusu müqaviləsi əsasında öz səlahiyyətlərini yerinə yetirən Könüllülərə və əməkdaşlara yaşayış icazəsi və vizalarını (çox girişli vizalar da) heç bir rüsumsuz və ya xərcsiz təmin edəcəkdir.

III MADDƏ

1. Birləşmiş Ştatları Hökuməti Könüllüləri, Sülh Korpusu Nümayəndəsini və Nümayəndəliyin əməkdaşlarını, öz vəzifələrini səmərəli yerinə yetirə bilmələri üçün, iki hökumətin lazımi hesab etdiyi miqdarda avadanlıq və ləvazimatla təmin etməlidir.

2. Azərbaycan Hökuməti Birləşmiş Ştatları Hökuməti və ya onun maliyyələşdirdiyi hər hansı bir kontraktor tərəfindən burada istifadə üçün gətirdiyi və ya Azərbaycanda əldə etdiyi bütün avadanlığı, ləvazimatı və digər mal və xidmətləri bütün vergilərdən (əlavə dəyər vergisi də daxil olmaqla), gömrük rüsumlarından və digər xərclərdən azad edəcəkdir.

IV MADDƏ

1. Birləşmiş Ştatları Hökumətinin bu Sazişin qoyduğu öhdəlikləri yerinə yetirməsini təmin etmək üçün, Azərbaycan Hökuməti Sülh Korpusu Nümayəndəsini, Nümayəndəliyin əməkdaşlarını (Sülh Korpusu Nümayəndəsi tərəfindən təyin olunmuş əməkdaşlar və kontraktorlar daxil olmaqla) və onların ailə üzvlərini məqbul olaraq qəbul etməlidir. Hər hansı digər müqavilələrin müddəalarından asılı olmayaraq, Azərbaycan Hökuməti Azərbaycanın vətəndaşları və ya daimi sakinləri olmayan bu şəxsləri və onların ailə üzvlərini Sülh Korpusu üçün gördükləri işdən və ya Azərbaycan xaricindəki mənbələrdən əldə etdikləri gəlirə görə vergidən, onların öz istifadələri üçün Azərbaycana gətirdikləri şəxsi əmlakı bütün gömrük rüsumlarından və digər xərclərdən, həmçinin, lisenziya xərcləri istisna olmaqla, bütün digər vergi və xərclərdən (immiqrasiya/viza xərcləri daxil) azad etməlidir. Əlavə olaraq, bu şəxslərə və onların ailə üzvlərinə, immunitetlər istisna olmaqla, Birləşmiş Ştatların diplomatik nümayəndəliyinin inzibati və texniki əməkdaşlarıyla bərabər status verilməlidir.

2. Azərbaycan Hökuməti Sülh Korpusu Nümayəndəsini, əməkdaşları və bu Saziş əsasında səlahiyyətlərini yerinə yetirən fərdləri, həmçinin, onların ailə üzvlərini heç bir rüsum və ya xərcsiz yaşayış icazəsi və viza (çox girişli vizalar da daxil) ilə təmin etməlidir.

V MADDƏ

Azərbaycan Hökuməti bu Sazişə uyğun olaraq Birləşmiş Ştatları Hökuməti və ya onun maliyyələşdirdiyi kontraktor tərəfindən istifadə üçün Azərbaycana gətirilən bütün fondları sərmayə və depozit tələblərindən və valyuta nəzarətindən azad edəcəkdir. Bu cür fondlar Azərbaycan valyutasında Azərbaycanda qeyri-qanuni olmayan ən yüksək məzənnə ilə mübadilə ediləcəkdir.

VI MADDƏ

1. Bu Sazişin yerinə yetirilməsi məqsədilə zəruri olduğu və ya arzu edilən vaxt iki Hökumətin müvafiq nümayəndələri vaxtaşırı, Azərbaycanda Sülh Korpusunun Könüllüləri və Sülh Korpusu proqramı üzrə bu cür tədbirlər keçirə bilərlər.
2. Bu Sazişdən irəli gələn bütün mübahisələr dostcasına iki hökumət arasında həll ediləcəkdir.

VII MADDƏ

Hər bir hökumətin götürdüyü öhdəliklər vəsait mənbəyinin olmasından asılıdır.

VIII MADDƏ

İki hökumətin qarşılıqlı razılığı ilə bu Sazişə vaxtaşırı əlavələr edilə bilər. Hər hansı bir əlavə yazılı formada olacaqdır. Bu Saziş ilə yardımın dəstəklənməsi üzrə əməkdaşlığa dair gələcək saziş arasında hansısa bir ziddiyyət yaranarsa, Sülh Korpusu Proqramına dair bu Saziş əsas götürüləcəkdir.

IX MADDƏ

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili tələblərin hər bir Hökumətin yerinə yetirdiyini təsdiq edən notaların mübadiləsi tarixindən qüvvəyə minir.

Bu Saziş Hökumətlərdən birinin digərinə onun ləğv edilməsi niyyəti barədə yazılı bildirişin tarixindən sonra bir il ərzində qüvvədə qalır.

Bu Sazişin ləğvi onun ləğv edilməsi tarixindən əvvəl həyata keçirilməsi ilə əlaqədar Hökumətlərdən hər hansı birinin hüquq, öhdəlik və ya hüquqi vəziyyətinə təsir etmir.

Bu Saziş Bakı şəhərində « » oktyabr 2003-cü ildə iki əsl nüsxədə ingilis və Azərbaycan dillərində tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKÜMƏTİ ADINDAN	AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN